

ƏLİ RUZGAR

Əli Rüzgar (Əli Paşa oğlu Sadiqov) 10 aprel 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayon Püsyan kəndində anadan olub. Püsyan kənd tam orta məktəbini bitirib.

Yaradıcılığa erkən yaşlarından şeir yazmaqla başlayıb. Şeirləri "Şərurun səsi", "Ədalət" qəzetlərində çap olunub, "Bölgələrdən səslər - 3" adlı almanaxa daxil edilmişdir.

Gənc şair hələ məktəb illərində bədii qiraətlə məşğul olmuşdur. Müxtəlif tədbirlərdə iştirak etmiş, Muxtar Respublika üzrə üçüncülüklərə və birinciliklərə layiq görülmüşdür.

## AYRILIQ SONRASI

Hər səhər yenidən unutmaq olmur,
Hər gecə yuxuda gördüyün kəsi.
Ayrılıq o qədər soyuq olur ki,
İnsanı isitmir doğma nəfəsi.

Ümid axtarırsan özgə nəfəsdə,
Gələnin, gedənin sayı bilinmir.
Şəklini silsən də telefonundan,
Köhnə xatirələr nəsə silinmir.

İnsana toxunan ayrılıq olur,
Ayrılıq sonrası tənhalıqdan çox.
Hər dəfə aynada baxdığınüzü,
Tanıya bilmirsən bu sənsən, ya yox.

An olur üzü də yadına düşmür,
Nəinki unutmaq onun adını.
Ona nifrət hissi böyütdüyündən,
Sevə də bilmirsən heç bir qadını.

Siqaret, külqabı masanın üstə,
Tozlu kitablarda qəmli şeirlər.
Sən öldün, ya qaldın nə fərqi var ki,
"Bülbül öz halına ağlar", deyirlər.

## OLAR

Dünyanı tutası deyiləm axı,
O məni tutmasa, tutsa da olar.
Mən öz dərdlərimlə başımı qatım,
Dünya baş qatmasa, qatsa da olar.

Sağlam gəmilərin sınıq yelkəni,
Qəbirdən adamlar haraylar məni.
Mən oyaq oluram bütün gecəni,
Ulduzlar yatmasa, yatsa da olar.

Mənim papirosum sönməsin təki,
Evim yol kənarı, yatağım səki.
Bircə Allah məni atmır nəsə ki,
O da bəyənməsə, atsa da olar.

## YERDƏ

Fikirlər mənasız, məsləhətlər boş,
Xəyallar, ümidlər yaşıyan yerdə.
İnsan xəsisləşir dərdini vermir.
Fələk sevincini daşıyan yerdə,

Başından dağların dumanı keçir,
Ağlından illərin gümanı keçir.
Qocalıq insanın zamanı keçir,
Ömrünün gözünü yaş oyan yerdə.

Özün-öz başını aldadıb, qatıb
Elə hey qovursan günü, saatı.
Bir də görürsən ki, əcəlin çatıb,
Dincəlib başını qaşıyan yerdə.

## İLAHİ DUA

Yoxluğunla var elədin,
İmtahan et çoxla məni.
Mənim ömrüm tanrı ömrü,
Hesablama vaxtla məni.

Dözənmərsən göz yaşıma,
Hər damlada qəm yaşanar.
Göz gəzdirmə üst-başıma,
Ruhumacan yoxla məni.

Açılmayan gizli sirrəm,
Həm sultanam, həm əsirəm.
Tanrılaşmaq istəmirəm,
İnsan kimi saxla məni.

## YAZILMAYAN

Bəlkə də mən sevgi dolu,
eşq qoxulu ilk baharı;
Bacarmadım içərsində
yaşatmağı misraların.

Xəzan vurdu, qopub düşdü,
yarpaqları sətirlərin.
Yazılanlar kölgəsidir,
yazılmayan şeirlərin.

## BURAX GEDİM

Ürəyimin söküyü var,
Bir-bir düşür, itirirəm.
O sənə bir tikə çörək.
Mən evə dərd gətirirəm.

Məndən nələr, kimlər keçir,
Sən də yeri, qurban olum.
Tükənirəm, vaxtım azdır,
Nə satan var, nə də pulum.

Danışmağı bacarmıram,
Danışdırma, sıxılarsan.
Möhkəm yapış ürəyimdən,
Söküyü var yıxılarsan.

## NƏMLİ HƏSRƏT

Son bir ümid,
sıçradı
Üzümə düşən yağış damlası.
İçimdən bir sən keçdi,
Yalvardım...
-nə olar
bircə
yolda qalmasın.
İçimdən bir sən keçdi,
Sıxdı göz qapaxlarımı.
Kirpiklərimi yığıram.
Damlalar ağ buludlara,
Mən yollara ağıram.
Kim dedi ağladığımı,
Bəlkə sevgi yağıram.

## GECƏ BİRİN YARISI

Ay düşür pəncərədən
yazdığım varaqlara.
Şair yazır sevgisin,
Gətirə bilmir dilə.
İlahi, ağlım dayaz,
Gah gedir, gah unudur.
Nə məni yer saxlayır,
Nə də səni göy tutur.
Ruhumun dirəyi yox,
Cismimdə uçur elə...

## UCUNDAN TUT

Ucundan tut həyatın,
Qorxa-qorxa yaşama.
Cəsarətli ol bir az,
Güvənmə baş daşına.

Elə öl ki, ardınca
ağlayanın olmasın.
Geridə dul bir qadın,
Körpə uşaq qalmasın.
Tök ovcundan daşları,
Özünə mülk götürmə.
Yoxsul yaşa, yoxsul öl,
Yoxsul ol ki, itirmə.
Ucundan tut həyatın...

## BAYQUŞ

Kədərindən, ya ahından
Dünənindən, sabahından,
Bu gecənin günahından,
Bir quş səsi gəlir, Allah.

Dünya boyda qəfəsindən,
O quşun od nəfəsindən,
Oxuduğu nəğməsindən,
Qarğış səsi gəlir, Allah.

Göydə yanır ulduzları,
Bu gecə ay ulduz yarı.
Bulud danıb ulduzları,
Yağış səsi gəlir, Allah.

Gözlərimi zülmət deşir,
Saçlarımı rüzgar eşir.
Könlümə bir nəğmə düşüb,
Bayquş səsi gəlir, Allah